# Gənclərdə özünüdərk və özünü qiymətləndirmənin psixoloji xüsusiyyətləri

**Qəribə Vahid qızı Rəhimova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**E-mail:** qariba648@mail.ru
**Simnarə Nadir qızı Heydərova**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** simnarah@gmail.com

**Rəyçilər:** psixol.ü.e.d., prof. Ə.T. Baxşəliyev,
p.ü.f.d., dos. Q.Q. Əzizov

**Açar sözlər:** özünüdərk, mənlik şüuru, özünüqiymətləndirmə, maarifçılik, psixoloji xüsusiyyətlər, gənclik yaş dövrü
**Ключевые слова:** идентичность, самосознание, самооценка, просветление, психологические особенности, возраст молодости
**Key words:** self-consciousness, self-awareness, self-assessment, enlightenment, psychological features, youth age

Gənclik dövrü uşaqlıqdan böyüklüyə doğru müffəssəl keçid mərhələsinin bir hissəsini, daha dəqiq desək, yeniyetməlik çağından müstəqil yetginlik çağına qədər olan hissəsini təşkil edir. Lakin gənclik həyatın xüsusi dəyəri olan nisbətən müstəqil dövrüdür. Böyümənin meyarı sadəcə fiziki yetkinlik deyil, həmçinin mədəniyyətə, bilik sisteminə, dəyərlərə, normalara, sosial ənənələrə yiyələnmək, müxtəlif əmək növlərini həyata keçirməkdir. Uşaqlıqdan yetişkənliyə keçid daxilində yeniyetmə və gənclik dövrü arasındakı sərhədlər şərtidir və tez-tez kəsişir. Müxtəlif mədəniyyətlərdə və vaxtlarda gənclik obrazı xeyli fərqlidir. Belə ki, antik və orta əsr müəllifləri adətən gəncliyi fiziki gücün və hərbi şücaətin yüksəlişi, lakin bununla bərabər özbaşınalıq və intellektual yetişməzlik iləəlaqələndiridilər.

Qərbin qəliz cəmiyyətlərində tələblər xeyli fərqlənir və çox vaxt hətta ziddirlər. Uşaqlıq oyun və azadlıq dövrüdür, yetişkənlik - zəhmət və məsuliyyət dövrüdür, uşaqdan asılılıq və itaət böyükdən təşəbbüs və müstəqillik tələb olunur, uşağı cinssiz məxluq hesab edir və libidodan qoruyurlar. Ancaq böyüklərin həyatında libido böyük rol oynayır və s. Ona görə də təzadlar bir sıra xarici və daxili konfliktlər yaradaraq yeni sosial rolların uzunmüddətli mənimsəmə dövrünü yaradır. Belə ki, sosiologiyada gənclik yaşı ictimai vəziyyətin dəyişməsi və şəxsiyyətin sosial fəaliyyəti iləəlaqədar olur. Qədim cəmiyyətlərdə bir yaş pilləsindən digərinə keçid xüsusi mərasimlə, dini ithafla rəsmiləşirdi ki, bunun da sayəsində fərd nəinki yeni sosial status əldə edir, həmçinin yenidən doğulmuş kimi olurdu (5, s. 200).

Gənclik yaş dövründə şəxsiyyətin yeni keyfiyyətləri, xüsusilə də özünü yaxşı adam kimi aparma, özünüdərketmə meylinin daha sürətli inkişafı kimi nəzərə çarpır. Gənclik yaş dövründə mühüm psixoloji fenomen olan özünüdərketmənin inkişafı sayəsində gənc öz şəxsiyyətini, qabiliyyətini, mənəvi keyfiyyətlərini daha yaxşı anlamağa başlayır, qrupda tutduğu yeri mövqeyini qiymətləndirir, müsbət və mənfi cəhətlərini görməyi bacarır, onda "Mən" məfhumu daha davamlı sürətə çevrilir. Bu dövrdə oğlan və qızların özlərinə verdiyi qiymət və başqalarının

onları qiymətləndirməsi gənclərdə şəxsi ləyaqət, özünəhörmət hissini formalaşdırıb inkişaf etdirir (5, s. 210).

Müxtəlif dövrlərdə müxtəlif nəzəriyyələr tərəfindən gəncliyin formalaşması qanunauyğunluqlarına aid müxtəlif fikirlər söylənilmişdir. Gəncliyin ontogenetik inkişaf dövrü kimi izah edilməsi bu və ya digər yanaşmanın müəlliflərinin prinsipal məqsədlərindən asIlıdır. Biogenetik nəzəriyyələr məhz bioloji inkişaf proseslərinin inkişafın yerdə qalan bütün tərəflərin determinləşdirildiyini ehtimal edir və gəncliyə ilk növbədə orqanizmin müxtəlif qabiliyyətlərin və funksiyaların güclü inkişafı kimi və ən yüksək səviyyəyə nail olmaq ilə xarakterizə olunan inkişaf mərhələsi kimi baxırlar. Psixoanalitik nəzəriyyələr gənclikdə instinktiv libido enerjisi axınının "Mən" qoruyucu mexanizmləri ilə konpensasiya olunmalı olan müəyyən psixoseksual inkişaf mərhələsini görürlər. "O" və "Mən" tərəfindən tendensiyalar mübarizəsi artan narahatçılıqda və tədricən yeni "O" və "Mən" harmoniyası müəyyənləşdikcə aradan qaldırılan münaqişə hallarının artmasında təzahür tapır (12, s. 300).

Gənclik yaş dövründə gənc başqa adamlarla müqayisə etməklə, özünümüşahidə, özünütəhlil, və.s yolu ilə özünüdərk edir. Gənc ətrafdakı adamların onun haqqında söylədiyi rəy və mülahizələri də müqayisə edir, bir-biri ilə tutuşdurur. Gənclik yaş dövründə sosial müqayisə özünüqiymətləndirmənin səmərəli vasitələrindən biri kimi meydana çıxır .

Müasir sivilizasiya, ictimai münasibətlərin xarakterində baş verən proseslər hal-hazırda dərin, sosiodinamik və psixodinamik dəyişikliklərə gətirib çıxarmışdır. Gənclərin həyata baxışında, həyat hadisələrinə münasibətdə yeni yönəlişliklər, fəal mövqe yaratmışdır. Milli-mənəvi dəyərlərə, tarixi keçmişə, bu günə və gələcəyə münasibətin yeni perspektivləri diqqəti cəlb edir. Gənclərin psixologiyasında mütilik, qeyri-tənqidi itaətkarlıq kimi xüsusiyyətlər get-gedə aradan qalxır, cəsarət və tolerantlıq, vətənpərvərlik, demokratik baxışlar, vətəndaşlıq mövqeyi və mübarizlik güclənir. Əgər müasir dövrün gəncliyinin özünüdərk və özünüqiymətləndirmə səviyyəsinə nəzər salsaq və əvvəlki dövrlərlə müzakirə etsək fərqi asanlıqla görə bilərik. Müasir gənclik daha fəal ve daha aktiv,həmçinin yeniliklərə daha meyillidir. Müasir gəncliyin özünüdərki daha sürətlə gedir müasir texnologiyanın inkişafına daha yaxşı ayaq uydurur gənclər. Sosiallaşmaya daha da bir meyillidirlər. Çox yaxşı bir haldır ki, sosial lahiyələrin təşkilində gənclər daha aktivdirlər. Deyə bilərik ki, bu gün ki, günümüzdə biz gənclərin özünüqiymətləndirmə meyarı yüksək olmaq üçün əsaslar kifayət qədər çoxdur. Ancaq digər tərəfdəndə texnologiyanın inkişafı ən çox gənclik yaş dövrünə təsir edir. Hətta bu təsir get-gedə böyüməyə başlayır.

XX əsrin ikinci yarsına qədər gənclərin şəxsiyyəti özünüdərki "Mən" formalaşması ailə, məktəb və onun əhatəsi ilə təşəkkül tapır və ardıcıl olaraq ailə, məktəb və ətraf onun şəxsiyyətini formalaşdırırdı.İnkişaf etməkdə olan texnologiya bu ardıcıllığa dördüncü bir ünsürü əlavə etdi. Televiziya, radio, kompyuter və internet şəklində sıralanan bu ardıcıllıq sonradan şəxsiyyətin formalaşmasına təsir göstərən ardıcıllığa daxil olsada sürətlə ilk sıralarda yer aldı.İnsan münasibətlərinə təsir göstərən bir ünsür halına gəldi. Elə buna görədə gəncliyin problemlərinin mərkəzində sosial şəbəkələrin olması qaçılmazdır.

İlk gənclik dövründə gənclərdə böyüklük hissi yüksəlir. Gənclər özlərinin artan imkanlarını dərk etməyə başlayırlar. Bütün bunlar həmin dövrdə özünüdərketmə meylinin daha sürətlə inkişaf etdiyini göstərir. Bu dövrdə gənclər özlərini, öz şəxsiyyətlərini yaxşı anlamağa başlayır, mənlik şüurları, özləri haqqında təsəvvürləri dəyişir. Onlar bir növ öz "mən"lərini dərk edirlər. Bu dövrdə gənclərdə özünüdərketmənin inkişafı ilə yanaşı mənlik şüurunun məzmunu da dəyişir, özləri haqqında təsəvvürləri artır. Oğlan və qızlar özlərinin xarici görkəmini, simalarını tamamilə yeni şəkildə qavramağa başlayırlar. Zahiri görkəmlərindəki kiçicik bir qüsur

onları həddsiz dərəcədə narahat edir. İlk gənclik dövründə gənclər özlərini qiymətləndirərkən ayrı-ayrı hərəkətlərini təhlil edir, özləri haqqında müəyyən mühakimələr yürüdürlər (2, s. 200).

Yeniyetmələrdən fərqli olaraq gənclərdə özünüqiymətləndirmə öz davranış və fəaliyyətlərini müstəqil olaraq təhlil etmək əsasında cərəyan edir. Ona görə də ilk gənclik dövründə özünüqiymətləndirmədə bir sıra uyğunsuzluqlar özünü göstərə bilir

Gənc bədəni canlı ruhu diri, qəlbi paylaşmağa açıq olan, həyatdan gözləntisi yüksək olan insan deməkdir. Gənc insanda müşahidə olunan ən önəmli ünsür dilimizdə "Dəliqanlılıq" sözü ilə ifadə olunan canlılıq həyəcan və dürüstlük onu var edən ən gözəl xüsusiyyətlərdəndir. Elə buna görədə insanlarda "İyirmi yaşa qədər idealist, iyirmi yaşdan otuz yaşa qədər sosialist-yəni sosial adətlərdən yana, otuz yaşdan sonra həyatın gərçəkliklərini görüb realist, qirx yaşdan sonra isə kapitalist olma meyilləri güclü olur" deyirlər (2, s. 200).

Başda "Quran" və Hz.Peygəmbər (s.a.s) olmaqla İslam gənclərə və gəncliyə böyük bir dəyər bəxş etmişdir. Hz.Peyğəmbərin ətrafında vəzifə və səlahiyyət verdiyi insanların böyük əksəriyyəti gənclərdən ibarət idi. Müasir gənclərin ən vacib problemlərini aşağıdakı kimi sıralamaq olar:

1. Şəxsiyyət problemi
2. Dostlar və məktəblə bağlı problemlər
3. Sosial əhatəsi ilə bağlı problemlər
4. Sosial şəbəkələrdə yaranan problemlər
5. İnanc problemləri

1. Şəxsiyyət problem-gənclərin hər dövrdən vacib problemi şəxsiyyət problemidir. Yeniyetməlikdən gəncliyə keçid mərhələsində gənclərin özlərini sübut etmələrində və özlərinə güvənmələrində, özünüqiymətləndirmələrində ciddi problemlər yaşayırlar. Ancaq onların formalaşmasına və yaxşı mühitdə böyüməsinə öncədən şərait yaratdıqda bu problem yaranmır.

2. Dostlar və məktəblə bağlı problemlər - gənclik yaş dövrünün formalaşmasına təsir edən ən mühüm amillərdən biridir. Ancaq bu zaman müsbət təsirlər kimi mənfi təsirlərdə qaçılmazdır.

3. Sosial əhatəsi ilə bağlı problemlər-İnsanın şəxsiyyətinin formalaşmasında ən vacib ünsürlərdən biridə onun sosial əhatəsidir. "Mən"in informalaşmasında, özünüqiymətləndirmə prosesinin yaranmasında sosial mühit əsas faktordur. Bu zaman "Mən"in digər "Mən"lə müqayisəsi prosesi baş verir.

4. Sosial şəbəkələrdə yaranan problemlər - sosial şəbəkələrin şəxsiyyətə təsiri mübahisə olunmayacaq dərəcədə çoxdur. İnsanların böyük əksəriyyətinin televiziya radio və sosial şəbəkələrə meyilliyinə baxsaq gənclərdə bu meyilliliyin nə qədər çox olduğunu müəyyən etmək çətin deyil.

5. İnanc problemləri - şəxsiyyət problemi yaşayan hər bir gəncin ən vacib problemlərindən biridə onların dini inanclarının sabit olmamasıdır. Müxtəlif dini məzhəblərə qoşularaq səhv əqidələrə qulluq etmələri onları uçuruma aparır. Ancaq bunu hər bir gəncə aid etmək olmaz (8, s. 400).

Sadalanan problemlərin həll olunmasında gənclərin özünüdərk prosesinin düzgün formalaşması əsas və vacib şərtdir. O, cümlədən gənclərin özünəməxsus peşə seçimləri, özlərinə uyğun münasibətlər qurmaları onların özünüdərkindən keçir.

İlk gənclik dövründən mühüm psixoloji hadisə özünüdərketmənin və öz "Mən"inin, öz şəxsiyyətinin davamlı obrazının yaranmasıdır. Bu dövrdə özünüdərketmənin, mənlik şüurunun inkişafı bir neçə istiqamətdə baş verir. Birinci növbədə gənclərin öz daxili aləmləri açılır.

Gənc oğlan və qızlar öz emosiyalarını ətrafda baş verən hadisələrin doğurduğu hal kimi deyil, öz «mən»inin vəziyyəti kimi qavramağa başlayırlar. Öz xüsusiyyətlərini, başqalarına oxşamamalarını hiss etmək baş verir, eyni zamanda təklik hissi özünü göstərir. Tədricən, həyata keçirilə bilən bütün arzuları və çox vaxt həyata keçirilə bilməyən idealları əsasında bir neçə az və ya çox real fəaliyyət planlarını hazırlamağa başlayır və bunlardan birini seçməli olurlar. Gənclərin həmin həyati planları onların bütün özünütəyin sahələrini: mənəvi simalarını, həyat tərzlərini, iddia səviyyələrini, peşə və həyatda öz yerlərini seçmələrini əhatə edir. Öz məqsədlərini, həyati niyyətlərini, həyati planlar qurmalarını dərk etmələri onların özlərini dərk etmələrinin, mənlik şüurlarının mühüm elementini təşkil edir. Bunlarla yanaşı olaraq bu dövrdə gənclərdə özləri haqqında tam təsəvvür formalaşır. İnsanın özünə münasibəti, birinci növbədə onun öz bədəninin xüsusiyyətlərini, xarici görkəmini, cəlbediciliyini dərk etməsi, sonra isə özünün əxlaqi-psixoloji, əqli, iradi keyfiyyətlərini dərk etməsi əsasında yaranır (8, s. 420).

Gənclərin özünüqiymətləndirməsi çox vaxt ziddiyyətli olur. Müxtəlif fəaliyyət növlərində əldə edilmiş nəticələrin təhlili, onun haqqında başqa adamların fikirləri və özünümüşahidə, özünün keyfiyyət və qabiliyyətlərini təhlil etmək sayəsində gənclərdə özünəhörmət kimi ümumiləşmiş münasibətlər yaranır. İlk gənclik dövründə iddia səviyyəsinin yüksəlməsi özünü qeyri-real yüksək qiymətləndirməyə gətirib çıxara bilir (8, s. 310).

Gənclərdə öz hissləri və fikirləri üzərində düşüncələr, özünüdərketmə tələbatı güclüdür. "Mən kiməm?", "Nəyə qabiləm?", "Həyatın mənası nədir?" kimi suallar onları düşündürür. Bu yaşda əxlaqı məsələlərə də maraq güclənir. Sözü üzə demək, prinsipiallıq, düzlük, gənclər üçün xarakterikdir. Onlar adamlarda düzlüyü, təvazökarlığı, əməksevərliyi, sadəlik və xeyirxahlığı daha yüksək qiymətləndirirlər. Tənqid, özünütənqid gənclər üçün xarakterikdir. Onlar diskussiya, həqiqət axtarışına daha çox meyl göstərirlər.

Gənclərin müasir dünyanın dəyişən dəyərlərinə uyması üçün, onların yalnız zehni qabiliyyətlərinin olması yetərli deyildir. Özünüdərk kimi mühüm bir məsələnin düzgün formalaşması vacibdir ki, gənc dəyişən dünyanın dəyərlərindən özünə pay çıxara bilsin.

XIX əsr maarifçilərinin (A.A Bakixanov, M.F.Axundov) özünüdərk və özünüqiymətləndirmə haqqında bu günlə səsləşən ideyaları vardır ki, onlardan müasir şəraitdə də istifadə etmək olar. Azərbaycan maarifçilərinin yeni nəslin irsində millət, milli şüur, milli xarakter, hisslərin ifadəsi, milli dilin inkişafı problemi, şəxsiyyət konsepsiyası, tarixi keçmişi öyrənməyə tələbatın artması, tarixi keçmişə maraq, milli özünüdərketmə, ailə və qadına münasibət və s. əsrin qlobal aktual məsələləri geniş əks olunmuşdur.

XIX əsrdən insanın şəxsiyyət kimi inkişafında tədrici təkamüldən sıçrayışlı təkamülə üstünlük verilməsi diqqəti cəlb edir. İnsan tam kamil şəxsiyyət o zaman hesab edilir ki, o azad olsun, suveren-müstəqil dövlətin vətəndaşı olsun. Belə olmadıqda inqilabi mübarizə yolu ilə də olsa öz müstəqilliyini bərpa edərək, azad mühit yaratmalı və bütün cəmiyyət üzvlərinin şəxsiyyət keyfiyyətlərinə yiyələnməsini təmin etməlidir (9, s. 41).

Milli fəlsəfi fikir dövlətçiliyin təməl daşlarından biridir və özünüdərketməyən xalqın nə vətən idealı nə fəlsəfi fikri nə də psixoloji fikri ola bilməz. Xalqın millətin milli şüurunun milli özünüdərketmənin inkişafı üçün milli ideologiya lazımdır. Hər bir üzvün fəlsəfi-psixoloji fikri onun hər bir üzvünün fəlsəfi-psixoloji yox, xalqı təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı, milli özünüdərk səviyyəsinə qalxmış şəxsiyyətlərin-filosofların fəlsəfi-psixoloji təlimlərindən ibarətdir. Ümumbəşəri özünüdərkdən fərqli olaraq milli özünüdərk millətin öz-özünü dərketməsidir, özünü tanımasıdır (9, s. 31).

Azərbaycan maarifçiliyi sistemli psixoloji konsepsiya ilə səciyyələnir. Bu konsepsiya əsasən iki istiqamətdə təzahür edir. Bir tərəfdən həyati müşahidələr şəxsiyyətə məxsus xüsusiy-

yətlərin adekvatlıq dərəcəsini müəyyənləşdirib əsərlərində əks etdirmiş, digər tərəfdən isə əsərlərində elmi psixoloji ideyaları, məfhum və təsəvvürləri aydınlaşdırmışlar.

Maarifçilər istər ayrı-ayrı qrupları, istərsə ayrıca bir şəxsiyyəti vaxtı keçmiş streotip və yönümlərdən, zərərli vərdişlərdən, davranış və rəftar naqisliklərindən xilas etmək üçün çıxış yolunu elmi və maarifi yaymaqla insan şüurunun və təfəkkürünün dəyişdirilməsində görürdülər. Onların maarifçilik ideyaları əxlaqın təmizlənməsinə və ağılla biliyin vəhdətinə xidmət edir, ağılla biliyin vəhdətinə söykənir.

Azərbaycan maarifçiliyində şəxsiyyətə onun özünüdərkinin formalaşmasına dair əsaslı fikirlər ədəbiyyatımızın dahiləri olan A.A.Bakıxanova və M.F.Axundova məxsusdur. Onların fikirləri bu gün ki, dövr üçün də aktualdır. A.Bakıxanov yalnız ayrıca bir fərdin deyil, bütün insanların xilas yolunu maariflənməkdə, avamlıqdan yaxa qurtarmaqda görür. Çünki müəllifin fikrincə, "Avam adamların idrak və mərifətlərinin yüksək dərəcəsi təqliddir, onlar heç bir halda təqliddən kənara çıxmağa qadir deyillər. Etdikləri hər cür tədqiqat və təfəkkür zirəklikdən deyil, adət üzündəndir (9, s. 43). A.Bakıxanov insanlar arasında psixoloji uyuşmazlığa təsir göstərən amillər içərisində mənəvi amilləri ön plan çəkir. Məsələn, yaxşı adamla pis adamın və ədalətli adamla zülmkar adamın arasında məhəbbət əlaqələri ola bilməz. Habelə ağıllının dəli ilə və insaflı adamın alçaq adamla dostluğu tutmaz (9, s. 42). A.Bakıxanovun yaradıcılığında insana əsəb-nəsibinə görə deyil, şəxsi ləyaqətlərinə, xüsusiyyət və xarakterinə görə qiymət vermək, maarifçi mütləqiyyət ideyasını müdafiə etmək, insanın özünütəkmilləşdirməsində ağıl və idrakın, özünüdərketməvə adekvat qiymətləndirmənin əhəmiyyəti, vətənpərvərlik, elmə təhsilə çağırış, şəxsiyyətin inteqral keyfiyyətlərinin formalaşması, əməyin təbliği və s. ideyalar əks olunmuşdur (9, s. 40).

A.Bakıxanova görə, insan özünə elə bir mühit yaratmalıdır ki, o, orada yüksək tərbiyə ala bilsin, həm əqli, həm də əxlaqi cəhətdən kamilləşə bilsin. A. Bakıxanov elmə böyük ictimai qüvvə kimi baxırdı. O göstərirdi ki, əgər sən elm aləmində lazım olan bilik əldə etsən və özündən sonra gələcək nəsil üçün öz bildiyindən iz qoyub getsən, özünü xoşbəxt adam hesab etmək hüququn olar və sən şəxsiyyət kimi kamilləşmiş olaraq dünyadan köçmüş olarsan. Bununda nəticəsində daima yad ediləcəyinə əmin ola bilərsən.

A.Bakıxanov və M.F Axundovun irsi bütövlükdə XIX əsrin maarifçilik ideologiyasında yeniləşmə meyillərini görməyə imkan verir. A.Bakıxanov istər ayrıca bir fərdin və ya şəxsiyyətin özünütəkmilləşdirməsində ağıl və idrakın, özünüdərketmə və adekvat qiymətləndirmənin mühüm rol oynadığı xüsusi olaraq qeyd etmişdir. Onun fikrincə, "İnsanın vücudu ruh və cism üzərində qurulmuşdur. Bunların birindən ağıl, o birindən nəfs doğur. Hər kəs nəfsin cürbəcür yaramaz hərəkət və günahdan ibarət olan istəklərindən çəkinərək, ağılla maarifin zövqündən qida və qüvvət verərsə, özünü, biz insanı gözəl sürətdə xəlq etdik dərəcəsinə çatdıraraq allahın sifətlərini özündə əks etdirər və tükənməz feyzə yetişər. Şəhvətə qapılaraq nəfsinə qüvvət verən adamın heyvaniyyəti ruhaniyyətə qalib gələrək onu "ən alcaq dərəcə" məqamına sürükləyəcəkdir" (11, s. 120).

M.F.Axundovun görə, bəşəriyyətin xoşbəxtliyi və səadəti o vaxt mümkün olacaqdır ki, insan ağlı zindandan xilas olsun və insan ağlı fikir və işlərdə əsas götürülsün. İnsan – şəxsiyyət konsepsiyasında insanın vətənpərvərlik hissinə malik olması, namusluluğu, qeyrətliyi, ağıllı və elmli olması, öz ideyaları uğrunda fədakarlığa getməsi, sevinc-kədər hissinə malik olması, şənlənməsi, özünü təkmilləşdirməsi Axundov ideyalarının əsas qayəsini təşkil edir (11, s. 118).

A.Bakıxanov bütün fəaliyyəti boyu xalqın istəklərinin istifadəçisi kimi çıxış edərək xalqın taleyi üçün dərin narahatçılıq keçirmişdir. A.Bakıxanov insanları fərdi xüsusiyyətlərinə görə

bir-birindən fərqləndirirdi. Hər kəs eyni bir şeyi müxtəlif şəkildə görür. Bir-birinə oxşayan iki adam göstərmək çətindir. Hər bir insanın özünəməxsus xarakteri var və hər kəs hadisələri özünəməxsus şəkildə dərk edir. Bu barədə A.Bakıxanov yazır: "İnsanlar şəkil və simaca bir-birindən fərqli olduqları kimi əxlaqcada müxtəlifdirlər. Dünyada iki nəfər tapılmaz ki,onların əxlaqı bir-birinin eyni olsun, hər kəsin hər işdə ayrı cür rəyi vardır" (11, s. 110).

M.Axundov kələkbaz ruhanilərin, qırmızı saqqal mövhumatçıların hər şeyi Allahın adı ilə bağlayıb, xalqı aldatmlarından və dindən şəxsi mənafeləri üçün istifadə etmələrindən hiddətlənərək yazırdı: "İslam dini ancaq o zaman yaşayıb davam edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar. Azərbaycan psixoloji fikrində insan onun azadlığı probleminin qoyuluşu, şəxsiyyətin bir tam kimi formalaşması, dinamik inkişafın təsviri, əxlaqi kamilləşməsi, milli şüurunun yetkinləşməsi bütövlükdə M.F.Axundovun adı ilə bağlıdır. M.F.Axundovun xalqın milli mənlik şüurunun inkişafı məsələsinə ciddi əhəmiyyət verir, onu kəskinliklə qoyaraq milli şüurun inkişafını həm də xalqın özunudərketməsi üçün əsas hesab edirdi.

M.F.Axundovun şəxsiyyətə tam, bütöv halda yanaşır. Elə buna görə də onun fiziki kamilliyi, bədii-estetik duyumunu, sevinc və kədərini, məhəbbət və nifrətini, dərin elmi intellektuallığını vəhdətdə görür və bunları özündə birləşdirənləri şəxsiyyət hesab edirdi (11, s. 158).

M.F. Axundovun milli mənlik və milli özünüdərkə yönəlmiş ictimai-siyasi, fəlsəfi, psixoloji ideyaları xalqımızın psixoloji fikir tarixində keyfiyyətcə yeni mərhələni təşkil edir. Onun mütərəqqi ideyaları maarifçiliyin sonrakı inkişafı üçün, eləcə də xalqın özünüdərkində mühüm əhəmiyyət kəsb etmişdir (11, s. 146).

Maarifçiliyin komponentlərinin ən yüksək forması, milli şüur, milli özünüdərk, özünüduyum, və şəxsiyyət konsepsiyası M.F. Axundovun görüşlərində adekvat təhlil olunmuşdur.

Ümumilikdə götürdükdə isə maarifçilər şəxsiyyət və onun formalaşmasına, fərdin müstəqil özünüdərkinə böyük önəm vermişlər. Həmçinin onlar öz ideyalarını irəli sürərkən milli və beynəlmiləl dəyərlərə arxalanmışlar.

**Məqalənin aktuallığı.** Gənclərin özünəməxsus peşə seçimləri, özlərinə uyğun münasibətlər qurmaları onların özünüdərkindən keçir. İlk gənclik dövründən mühüm psixoloji hadisə özünüdərketmənin və öz "Mən"inin, öz şəxsiyyətinin davamlı obrazının yaranmasıdır. Belə olduqda, gənclərin öz daxili aləmləri açılır. Gənc oğlan və qızlar öz emosiyalarını öz "Mən" inin vəziyyəti kimi qavrayır və dərk edirlər. Məqalənin də aktuallığı onun belə bir vacib məsələyə həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə gənclik yaş dövrünün bir sıra spesifik xüsusiyyətləri açıqlanmaqla yanaşı, müasir gənclərin üzləşdiyi ən vacib problemlərin şərhi verilmiş, müxtəlif dövrlərdə mütəfəkkirlərimizin, maariçilərimizin bu kimi problemlərə fikirləri konkret nümunələrlə göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S. Gənclik və özünütərbiyə haqqında. Bakı: Birləşmiş, 1961, 39 s.
2. Bayramov Ə.S Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı: Gənclik, 1969, 135 s.
3. AxundovM.F. Əsərləri. III c. Bakı: Azərnəş., 1955, 320 s.
4. Bakıxanov A.A. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, 540 s.
5. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003, 355 s.

6. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı: Renessans, 2001, 374 s.
7. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, 286 s.
8. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Zərdabi LTD, 2008, 528 s.
9. Məhərrəmov M.C. A.Bakıxanovun psixoloji görüşləri. Azərbaycan məktəbi, 1996, № 10, s. 41-46.
10. Orucov Ə.A. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu - XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: Avropa, 2012, 251 s.
11. Rzayeva N.T. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası: Psixol.elm.nam. ... dis. Bakı, 2004, 147 s.
12. Rzayeva G.Y. Özünüqiymətləndirmə psixoloji tədqiqat obyekti kimi // Dil və ədəbiyyat, 2013, № 1, s. 324-326.

**Г.В. Рагимова, С.Н. Гейдарова**

## Психологические особенности самооценки и самооценки у молодежи

## Резюме

У молодых людей есть свой выбор профессии и отношения, которые принадлежат им. Важным психологическим событием в раннем возрасте является появление самосознания и стойкого образа моего собственного «Я». В этом случае внутренний мир молодых людей раскрывается. Молодые парни и девушки воспринимают и понимают свои эмоции как состояние своего «Я». Как правило, человек должен быть в состоянии улучшить себя и работать в любом возрасте.

**G.V. Rahimova, S.N. Haydarova**

## Psychological characteristics of Self-consciousness and self-assessment in the youth

## Summary

Young people have their own career choices and relationships that are theirs. In the first days of youth-consciousness and self-important psychological event, "I" outlets, continuous image formation of their personality.In this case, the inner world of young people is revealed. Young boys and girls perceive and understand their emotions as the condition of their "I". Generally, a person should be able to improve himself and work at every age.

**Redaksiyaya daxil olub:** 02.02.2022